**24.10.2022: xəbər**

**Khazar University Staff Members at Bootcamp "72 hours of a mentor"**

On October 21-23, 2022, Farida Tatardar, the head of the Physics and Electronics Department of Khazar University, Humay Huseynova, the lecturer of the Computer Science Department, and Kamala Mustafayeva, the lecturer of History and Archeology Department, visited the "Innovations Center" of the State Agency for Citizen Services and Social Innovations under the President of the Republic of Azerbaijan. participated in the "Bootcamp" event called "72 hours of Mentor" implemented within the framework of the "Skills for the Future" project at the Training Center of the Ministry of Taxes in Shamakhi.

Trainings on "Innovation in the digital world", "Networking", "Leadership skills", "Effective team management", "Startup pitching", "Mentoring, techniques and mechanisms", "Startup life cycle", "Development of presentation skills", " Financial attraction strategies", "Emotional intelligence" and "Idea competition - Innovative product development" were held, and then team work was organized. The head of "Bilim Baku" Center also informed about "National Technology Initiative T3 Foundation & Technofest".

The goal of the "Skills for the Future" project, implemented since April 2021, is to increase the capacity of personnel in the field of innovation, support innovation activities in education, provide support to students in the educational process for the development of innovative ideas,

and direct students to the field of discovery and invention, which plays an important role in the technological development of the country.

**Xəzər Universitetinin əməkdaşları “Mentorun 72 saatı” adlı "Bootcamp” tədbirində**

2022-ci il oktyabrın 21-23-də Xəzər Universitetinin Fizika və Elektronika departementinin müdiri Fəridə Tatardar, Kompüter elmləri departamentinin müəllimi Humay Hüseynova və Tarix və arxeologiya departamentinin müəllimi Kəmalə Mustafayeva Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “İnnovasiyalar Mərkəzi” tərəfindən Şamaxıda Vergilər Nazirliyinin Təlim Tədris Mərkəzində “Gələcək üçün

bacarıqlar” layihəsi çərçivəsində həyata keçirilən “Mentorun 72 saatı” adlı "Bootcamp” tədbirində iştirak ediblər.
Tədbirdə “Rəqəmsal dünyada yenilik”, “Şəbəkələşmə”, “Liderlik bacarıqları”, “Komandanın effektiv idarə olunması”, “Startup pitching”, “Mentorluq, texnika və mexanizmləri”, “Startapın həyat dövrü”, “Təqdimat bacarıqlarının inkişaf etdirilməsi”, “Maliyyə cəlb edilməsi strategiyaları”, “Emosional intellekt” və “İdeya müsabiqəsi - İnnovativ məhsul inkişafı” mövzularında təlimlər keçirilimiş, sonra isə komandalar üzrə iş təşkil olunmuşdur. "Bilim Bakı" Mərkəzinin rəhbəri “Milli Teknoloji Hamlesi T3 Vakfı & Teknofest” haqqında da məlumat vermişdir.
2021-ci ilin aprel ayından etibarən həyata keçirilən “Gələcək üçün bacarıqlar” layihəsinin məqsədi innovasiya sahəsində kadr potensialının artırılması, təhsildə innovasiya fəaliyyətinin dəstəklənməsi, innovativ ideyaların inkişaf etdirilməsi üçün təhsil prosesində tələbələrə dəstək göstərilməsi və tələbələrin ölkənin texnoloji inkişafında önəmli rol oynayan kəşf, ixtira sahəsinə yönləndirilməsidir.


Gələcək üçün
Sabah
Bu gün
Başlayır!


TEKNOFEST
DUNYANIN EN BUYUK








Gələcək üçün
Bacarıqlar
Sabah bu gün başlayır!
Təşkilatçılar:
azericard
UTECA

